Müvafiq iş Azərbaycan Respublikası Prezidentinin 10 iyun 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-20012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" çərçivəsində həyata keçirilib.

Təqdim olunmuş avadanlıq dəstində noutbuk, proyektorla yanaşı elektron löhvə də vardır. Müasir texnologiyaların təhsildə istifadəsini genişləndirən elektron lövhə, tədris prosesini tamamilə yeni səviyyədə qurmağa imkan yaradır.

Onu da qeyd edək ki, İKT avadanlığı Avropa liseyinə "Elektron məktəb" pilot layihəyə əsasən təqdim olunub.

Yaxın müddət ərzində pilot layihədə iştirak edən daha 9 Bakı məktəbi İKT avadanlığı ilə təchiz olunacaq. Pilot layihə 20, 6, 60, 160, 134, 8, 23, 7 saylı və Z.Əliyeva adına orta məktəbləri, həmçinin Avropa liseyini əhatə edir. Layihə çərçivəsində həmin məktəblər fiberoptik kabel vasitəsi ilə yüksək sürətli internetə, Məlumat və Resurs Mərkəzinə çıxışla təmin ediləcəkdir.